# Oğuz: Hədəfimiz təhsildə daha yüksək nəticələr qazanmaqdır

**Müstəqilliyinin üçüncü onilliyini yaşayan Azərbaycanımız ulu öndər Heydər Əliyevin siyasi və iqtisadi strategiyasından bəhrələnərək bütün sahələrdə uğurlu nəticələr qazanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu strategiyanın işığı ilə digər sahələrdə olduğu kimi, təhsilin də dövrün artan və yeniləşən tələblərinə uyğun inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirirlər. Son onilliklərdə məhz dövlət başçısının yüksək diqqət və qayğısı, əməli dəstəyi sayəsində ölkəmizdə yüzlərlə yeni məktəb və uşaq bağçaları tikilmiş, əsaslı təmir olunmuşdur. Söhbət açacağımız Oğuz rayonunun timsalında da bu, aydın görünür. Ötən dövr ərzində təhsilin maddi-texniki bazasının gücləndirilməsi, infrastrukturun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi, pedaqoji kadrlarla təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə daha yaxşı təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, istedadlı uşaqların inkişafı və digər istiqamətlərdə ürəkaçan nəticələr əldə olunmuşdur.**

Bölgə müxbirimizlə söhbətinə yuxarıdakı fikirlərlə başlayan **rayon təhsil şöbəsinin müdiri Anar Məcidov** daha sonra aşağıdakıları demişdir:

—2005-ci ildən ötən dövr ərzində Oğuz rayonunda 26 yeni məktəb binası inşa olunmuş və ya quraşdırılmış, 4 məktəb binası respublika Təhsil Nazirliyi xətti ilə əsaslı təmir edilmişdir. Cari dərs ilində Xaçmazqışlaq, Mollalı və Baş Daşağıl kəndlərində modul tipli tədris binaları quraşdırılmışdır. 2019-cu il dekabrın 19-da rayonumuzda bərpa gücləndirmə və əsaslı təmir işlərindən sonra istifadəyə verilən Arzu Əliyev adına Padar kənd tam orta məktəbinin binası müəllim və şagirdlərin istifadəsinə verilmişdir.

Rayonda uşaq bağçası olmayan 8 kənddə “İcma qruplarının iştirakı vasitəsilə məktəbəqədər təhsilin keyfiyyətinin yaxşılaşdırılması” layihəsi çərçivəsində 3-5 yaşlı uşaqların təhsili təşkil olunmuşdur. 2019-2020-ci dərs ilində 6 məktəbdə 134 nəfər şagirdi əhatə edən 7 təmayül sinfi, Xaçmaz kənd 1 nömrəli və Oğuz şəhər 1 nömrəli tam orta məktəblərində VII sinif şagirdlərindən ibarət riyaziyyat və informatika təmayüllü, Kərimli və Xaçmaz kənd 1 nömrəli tam orta məktəblərində VIII sinif şagirdlərindən ibarət təbiət fənləri təmayüllü xüsusi istedad sinifləri təşkil olunmuşdur.

Xaçmaz kənd 1 nömrəli tam orta məktəbin direktoru Eyvaz Hacıyev “Əməkdar müəllim” adına layiq görülmüş, Oğuz şəhər 2 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi İmarət Cəlilova “Tərəqqi” medalına layiq görülmüş, 2 nəfər müəllimimiz “Qabaqcıl təhsil işçisi” döş nişanı, bir nəfər müəllimimiz isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Bütün bunlar da ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-Prezident Mehriban xanım Əliyevanın təhsilə, onun aparıcı qüvvəsi olan müəllim əməyinə verdikləri dəyərli qiymətin bəhrəsidir.

2019-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Milli Məclisində “İlin Gənc Müəllimi” müsabiqəsinin qaliblərinin təltif edilmə mərasimində Oğuz şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Mətanət Kərimova təltifnamə və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Kərimli kənd tam orta məktəbinin biologiya müəllimi Aliyə İbrahimxəlilova pedaqoji mühazirələrin, müsabiqələrinin respublika mərhələsində uğurla iştirak edərək II yeri tutmuşdur.

2019-cu il iyun ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən fənn olimpiadalarının respublika müsabiqəsi mərhələsində rayonumuzun 6 məktəblisi də qaliblər sırasında olmuşdur. Onlardan biri qızıl, üç nəfəri gümüş, iki nəfəri isə bürünc medalla təltif edilmişdir. Qazanılan medal sayına görə Oğuz rayonu Bakı, Sumqayıt və Mingəçevir şəhərləri istisna olmaqla respublika rayonları arasında birinci yerdədir. Ali məktəblərə qəbul qaydalarına edilmiş yeni dəyişikliklərə əsasən fənn olimpiadalarının respublika mərhələsinin qalibləri ali məktəblərə imtahansız qəbul olunmaq hüququ əldə etmişlər. Bu hüququ qazanan məktəblilərdən biri də rayonumuzun şagirdidir. 2019-2020-ci dərs ilində də 44 nəfər şagirdimiz fənn olimpiadalarının yarımfinalında iştirak etmək hüququ qazanmışdır.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş “Ən yaxşı təqdimat” respublika müsabiqəsinin rayon mərhələsinin qalibi, Tərkeş kənd tam orta məktəbinin X sinif şagirdi Şəbnəm Məcidli müsabiqənin respublika mərhələsində də uğurla çıxış edərək II yeri tutmuş, diplom və qiymətli hədiyyə ilə təltif olunmuşdur. “Pətək” ictimai birliyi tərəfindən “Dəyərlərimiz-sərvətimiz, gələcəyimizdir” layihəsi çərçivəsində keçirilən müsabiqənin “Ən yaxşı hekayə” nominasiyası üzrə Oğuz şəhər 2 nömrəli tam orta məktəbin şagirdi respublika üçüncüsü olmuş, yenə bu il Daşkənd şəhərində Özbəkistan İncəsənət Akademiyası və Özbəkistan Xalq Təhsili Nazirliyi tərəfindən təşkil olunan “Daşkənd sevincləri” VII Beynəlxalq uşaq rəsmləri müsabiqəsində iştirakına görə 2 nəfər şagirdimiz sertifikatla təltif edilmişdir.

2019-cu ilin aprel ayının 13-15-i tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Təhsil və Kənd Təsərrüfatı Nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən “Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik” mövzusunda III respublika müsabiqəsinin final mərhələsində şagirdlərimiz iki nominasiya üzrə birinci yerə layiq görülmüşlər.

Azərbaycan Respublikasının Gənclər və İdman, Təhsil Nazirliklərinin, Milli Olimpiya Komitəsinin, Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə mart ayında Göyçay şəhərində keçirilən məktəblilər arasında respublika çempionatının proqramına daxil olan şahmat üzrə zona yarışında məktəblilərdən ibarət Oğuz komandası keçirdikləri 11 oyunun hamısında qalib gələrək respublika birinciliyinin final mərhələsinə vəsiqə qazanmışlar. Respublikanın şahmat fənnini tədris edilən pilot məktəblərinin şagirdləri arasında bu ilin mart ayında keçirilən şahmat festivalının final mərhələsində 2 şahmatçımız iştirak etmək hüququ qazanmışdır. 2019-cu ilin fevral ayında Şəki şəhərində məktəblilər arasında respublika çempionatının proqramına daxil olan basketbol idman növü üzrə şəhərdəki 3 nömrəli məktəb-liseyin komandası qalib gələrək final mərhələsinə vəsiqə qazanmışdır.

Oğuz Rayon Təhsil Şöbəsi şagirdlərdə hərbi-vətənpərvərlik tərbiyəsini və onların milli-mənəvi dəyərlərə yiyələnməsini inkişaf etdirmək məqsədilə “Şahin”, “Sərhədçi” hərbi idman oyunlarının, tarixi günlər və əlamətdar bayramlar münasibətilə inşa-yazı və rəsm müsabiqələrinin, müzakirələr, elmi-praktik konfranslar, dəyirmi masalar, sərbəst güləş, şahmat və voleybol yarışlarının, ağsaqqallar və veteranlarla görüşlərin keçirilməsinə diqqət artırılmışdır. 2019-cu ilin aprelində Oğuz şəhər 3 nömrəli məktəb-liseydə Milli Ordunun 2016-cı il aprel döyüşlərinin 3-cü ildönümünə həsr edilmiş “Azərbaycan Milli Ordusunun şanlı aprel zəfəri-qələbəyə aparan yol” mövzusunda tədbir keçirmişdir. Şəhərdəki 1,2 və 3 nömrəli, Sincan, Kərimli, Padar, Bayan, Xaçmaz kənd 1 nömrəli, Baş Daşağıl, Yaqublu, Tərkeş kənd tam orta məktəblərində görkəmli Azərbaycan alimlərinə, hərb tariximizdə şanlı səhifələr yazmış sərkərdələrə, Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli nümayəndələrinə, Milli qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə də məktəblilərimiz yüksək fəallıq göstərmişlər. Şəki şəhərində keçirilmiş “Sərhədçi” hərbi idman oyununun respublika mərhələsində Muxas kənd tam orta məktəbinin “Çənlibel” komandası iştirak etmişdir.

Artıq üçüncü ildir ki, Oğuz məktəbləri tərəfindən “Əsgərə məktub” devizi altında yazıların vaxtaşırı olaraq hərbi hissələrə göndərilməsi təşkil olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə dahi Azərbaycan şair və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibəti ilə respublikamızda 650 min ağacın əkilməsi ilə əlaqədar keçirilən kampaniya çərçivəsində Oğuz rayonunun ümumtəhsil məktəblərinin həyətində yerli şərait üçün əlverişli olan 345 ədəd müxtəlif növ ağac tinginin əkilməsi təmin edilmişdir.



2010-cu ildə rayonumuzun ümumtəhsil məktəblərinin IX və XI sinif şagirdləri ümumi orta və tam orta səviyyələri üzrə buraxılış imtahanlarını uğurla başa vurmuşlar. IX sinif şagirdlərinin buraxılış imtahanlarının hər iki mərhələsinin nəticələrinə əsasən Oğuz şəhər 3 nömrəli məktəb-liseyin IX sinif şagirdi Cahan Ənsərli respublikada ən yüksək nəticə göstərən yeganə şagird olaraq birinci mərhələdə 90 bal, ikinci mərhələdə isə 210 bal, iki mərhələnin yekunlarına əsasən cəmi mümkün olan-maksimum 300 balı toplamağa müvəffəq olmuşdur. 42 nəfər məktəblimizi 500 baldan, o cümlədən 6 nəfər 600 baldan yuxarı nəticə göstərmişlər. Qəbul imtahanlarında Oğuz şəhər 1 və 3 nömrəli, Xaçmaz kənd 1 və 2 nömrəli, Padar, Bayan, Tərkeş, Kərimli, Muxas kənd tam orta məktəblərinin məzunları daha yüksək nəticə göstərmişlər. Ümumilikdə isə 205 nəfər məzunumuz tələbə adını qazanmışdır. Təmayüllü siniflərini bitirən 130 məzundan 107-si ali məktəbə qəbul olunmuşdur.

Uğurlarımız çoxdur. Mən onların bir hissəsindən söhbət açdım. Qarşıda duran vəzifələrimiz də çox məsuliyyətli və şərəflidir. Hədəfimiz uğurları daha da artırmaqla Oğuzun yenə təhsil sahəsində respublikanın qabaqcıl rayonları sırasında getməsini təmin etməkdir. Dərs ilinin ötən dövrünün nəticələri deməyə əsas verir ki, bu hədəfə doğru da inamlı addımlar atılır.

**Söhbəti qələmə aldı:**
**Rasim AMANOV,**
**“Respublika”.**